Tarix boyu Azərbaycan dünyəvi dövlət olmaqla yanaşı, həm də öz milli-mənəvi dəyərlərinə də sadiq qalmışdır. Ölkəmizdə müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin və etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgəyaşayış şəraitində bir ailə kimi yaşamış və bu ənənə günümüzə qədər davam etmişdir. Tarixən mövcud olan dini dözümlülük ənənələrinin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği dövlətin əsas siyasi prioritetlərindən biri olmuşdur.



# Zəngin dini-mədəni irsə malik qədim və müasir Azərbaycan

Hazırda ölkəmizdə dini dözümlülük, bütövlükdə tolerantlıq mühiti və mədəniyyəti ümummilli lider Heydər Əliyevin müdrikcəsinə formalaşdırdığı dövlət-din siyasətinə uyğun daha da möhkəmləndirilib. Bu baxımdan, Prezident İlham Əliyevin "Azərbaycanda dövlət-din münasibətləri sağlam təməl üzərində formalaşıb və inkişaf edir" fikri heç də təsadüfi söylənməmişdir. Ölkəmizdə beynəlxalq konfransların, tədbirlərin keçirilməsi tolerantlığın ən yüksək səviyyədə olmasının göstəricisidir. Belə ki, 2010-cu ilin aprel ayında Bakı şəhərində keçirilmiş "Qloballaşma, din, ənənəvi dəyərlər" adlı tədbirdə müxtəlif ölkələrin 200-dən çox nümayəndəsi iştirak etmişdir. Bu da öz növbəsində, Azərbaycanın tolerantlıq modelinin beynəlxalq aləmdə tanınmasında mühüm rol oynamışdır. 2011-ci ildən başlayaraq Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Forumlar UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, ICESCO və BMT-nin Dünya Turizm Təşkilatının əməkdaşlığı ilə həyata keçirilir ki, bu da dövlətin din siyasətində əldə etdiyi nailiyyətlərin dünya ictimaiyyətinə çatdırılması və bir çox qabaqcıl ölkələr tərəfindən öyrənilməsi, eyni zamanda tətbiqi sahəsində geniş imkanlar yaradır. Dindarlara dövlət dəstəyi və qayğısının artırılması məqsədilə ölkədə Heydər məscidi, "Hacı Cavad" məscidi inşa edilmiş, "Təzəpir", "Bibiheybət", "Əjdərbəy" məscidlərində, Gəncədəki "İmamzadə" kompleksində təmir-bərpa işləri aparılmışdır.

Çoxmillətli və çoxdinli ölkə olan Azərbaycanda həmişə müxtəlif millətlərin, etnik qrupların, dini azlıqların birgə yanaşı yaşaması təmin edilib. Qarşılıqlı etimada və hörmətə əsaslandığı üçün bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində milli və ya dini zəmində ayrı-seçkilik mövcud deyil. Təməlini ulu öndər Heydər Əliyevin qoyduğu dövlət-din münasibətləri bu gün uğurla davam etdirilir. Müstəqillikdən sonra ölkəmizdə xalqımızın mənəvi sərvətləri olan dini ibadətgahların, məscidlərin, kilsələrin və digər dini ayinlərin icra olunduğu məkanların təmirinə və bərpasına xüsusi diqqət ayrılıb. Bu gün Azərbaycanda yeni dini ibadətgahların tikintisi də bu münasibətlərin bariz nümunəsidir. Belə ki, dövlətin diqqət və qayğısı nəticəsində son illər ölkəmizdə yüzlərlə məscid, kilsə, sinaqoq, məbəd və digər ibadətgahlar tikilib və yaxud təmir olunub. Hazırda işğaldan azad edilmiş ərazilərdə reallaşan quruculuq işləri çərçivəsində oradakı dini ibadətgahların təmiri, bərpası və yenidən qurulmasına başlanılıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin məlumatına görə, dövlətin bu sahəyə göstərdiyi qayğı Azərbaycanda qeydiyyata alınan 970 dini qurumun hər birini əhatə edir. Məlumat üçün bildirək ki, konfessional baxımdan dini qurumlardan 933-ü İslam, 37-si isə qeyri-islam təmayüllüdür. Ölkəmizdə 2250 məscid, 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir və 748 pir və ziyarətgah mövcuddur. Rəsmi məlumatlara əsasən, işğaldan azad olunmuş ərazilərimizdə indiyədək təsbit olunan tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgahdır. Buradakı 67 məsciddən 65-i tamamilə, 2-si isə qismən dağıdılaraq yararsız hala salınmışdır.

## Dövlət başçısının göstərişi ilə dini abidələrimiz təmir olunur, qorunub saxlanılır

Naxçıvan Muxtar Respublikasında 213 məscid, 25 pir və ziyarətgah fəaliyyət göstərir. Qeydiyyatdan keçmiş dini icmaların sayı 17-dir. Çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dindövlət münasibətləri Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir, multikultural həyat tərzinin daha da möhkəmlənməsi üçün böyük işlər görülür. Təsadüfi deyil ki, Azərbaycanın tolerantlıq modeli dünyanın bir çox universitetlərində, o cümlədən yeni binası istifadəyə verilən Azərbaycan İlahiyyat İnstitutunda öyrənilir. Azərbaycan Prezidenti İlham Əliyev bu il aprelin 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak etmişdir. İnstitutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. İnstitutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır. Hər üç səviyyədə təhsil dövlət sifarişinə əsasən həyata keçirilir. İnstitutda dinşünaslıq və islamşünaslıq istiqamətlərinin müxtəlif fənləri ilə yanaşı, sosial və humanitar fənlər, həmçinin ingilis, ərəb və ibri dilləri tədris olunur.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti dövlətin din siyasəti istiqamətində, xalqın milli-mənəvi dəyərlərinin qorunub saxlanması, dinə dövlət dəstəyi və qayğısı sahəsində mühüm rol oynayır. Onun təşəbbüsü ilə həyata keçirilən "Tolerantlığın ünvanı. Azərbaycan" layihəsi çərçivəsində müxtəlif dini ibadət yerlərində - "Pir Həsən" ziyarətgahı, "İmam Hüseyn" məscidi, Şamaxıda "Cümə" məscidi, Gəncədə "Həzrəti Zeynəb" məscidi, Bakıda "Müqəddəs Məryəm" kilsəsi, Nic qəsəbəsindəki "Müqəddəs Məryəm Ana" alban kilsəsində təmir-bərpa işləri görülmüşdür.

Vətən müharibəsindən sonra işğaldan azad olunmuş torpaqlarımızda da Heydər Əliyev Fondunun dəstəyi ilə quruculuq işləri davam etdirilir. Erməni vandalları tərəfindən tamamilə dağıdılaraq yararsız hala salınan tarixi-dini abidələrimiz Fondun dəstəyi ilə yenidən bərpa olunur. Uzun illərdən bəri erməni əsarətində qalan Şuşanın "Yuxarı Gövhər ağa", "Aşağı Gövhər ağa", "Saatlı" məscidlərinin, eyni zamanda "Yuxarı Gövhər ağa" məscidinin həyətində yerləşən mədrəsənin bərpa olunaraq əvvəlki vəziyyətinə qaytarılması bu istiqamətdə aparılan ilkin işlər sırasındadır. Qarabağdakı bütün tarixi-dini abidələr kimi, bu məscidlər də dağıdılmış, interyeri dəyişdirilmişdir. Hazırda "Yuxarı Gövhər ağa" məscidinin birinci mərhələdə bərpası işləri başa çatdırılmışdır. "Bizim dini abidələrimiz qorunur və qorunacaq. Mənim göstərişimlə bizim bütün əsas dini abidələrimiz təmir olunub. Bir çoxları yenidən tikilib, o cümlədən mənim göstərişimlə Heydər məscidi yenidən tikilib. Bizim digər məscidlərimiz əsaslı təmir edilib. Onların təmiri simasını qorumaq şərtilə aparılıb. Azərbaycan bu sahədə də dünyaya göstərir ki, nə qədər zəngin mədəni irsə malikdir". Bu fikirləri Prezident İlham Əliyev Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bildirmişdir.

Prezident İlham Əliyev çıxışlarında hər zaman vurğulayır ki, ölkəmizdə olan bütün məbədlər tarixi sərvətimizdir. Onu da qeyd edək ki, Azərbaycanda dünya dinlərinin liderlərinin Zirvə görüşləri keçirilir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dininə olan münasibəti örnək kimi göstərir. Rusiya Pravoslav Kilsəsinin patriarxı Kiril Bakıda olarkən Azərbaycanda bu sahədə görülmüş işlərə yüksək qiymət verib, Pravoslav kilsələrində olub. Roma Papası Fransisk Bakıda olarkən rəsmi çıxışında Azərbaycanda tolerantlıq, dini dözümlülük, multikulturalizm haqqında danışıb. Bir sözlə, multikulturalizm, İslam həmrəyliyi kimi ideyalar Azərbaycan dövlətinin həm siyasətində, həm də fəaliyyətində öz əksini tapır.

**Mustafa KAMAL,**
**"Respublika".**